*Vətən müharibəsində Azərbaycanın Zəfəri siyasi-hüquqi nəticələrinə görə həm regional, həm də qlobal miqyaslı hadisədir. İlk növbədə ona görə ki, son bir neçə əsr ərzində torpaq itirən, münaqişələrdə məğlub olan Azərbaycan məhz 4 il əvvəl başlanan Vətən müharibəsində cənab İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə qazandığı şanlı Qələbə sayəsində qalib, itirdiyi torpaqları geri qaytaran, yanlız özünün yox, bütövlükdə bölgəmizin taleyini dəyişən hərbi-siyasi güc sahibi kimi özünü təsdiq etdi. Məlumdur ki, Azərbaycan regionda heç vaxt qarşıdurma arzulamayıb. Hətta ərazilərimizin işğalda olduğu dövrdə, 1995-ci ildə Konstitusiyamız qəbul olunarkən ulu öndər Azərbaycan Respublikasının ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşaması və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməsini ali konstitusion niyyət kimi Konstitusiyamıza daxil etmişdir.*

# Dövlətçilik tarixində yeni eranın başlanğıcı




Lakin Ermənistan nəinki təcavüzkar niyyətindən əl çəkmir, hətta 2020-ci ilin ortalarında yeni müharibə və yeni ərazilər ritorikasını rəsmən dövlət səviyyəsində gizlətmirdi. Bu mənada, ölkəmiz Ermənistanı və şər blokunu məğlub etməklə beynəlxalq hüququn ümumtanınmış prinsiplərinin, eyni zamanda BMT Nizamnaməsi ilə təşkilatın üzvləri qarşısında qoyulmuş imperativ tələblərin işğal formasında ehtiva olunan kobud pozuntusunu aradan qaldırdı. Azərbaycan qlobal problem olan təcavüz aktına, eləcə də davam edən müharibə cinayətlərinə son qoymaqla bəşəri dəyərlər uğrunda yüksək iradə nümayiş etdirdi. Habelə Azərbaycanın Zəfəri BMT Təhlükəsizlik Şurası və Baş Assambleyanın qətnamələri başda olmaqla, həllini gözləyən çoxsaylı hüquqi aktların icrası baxımından beynəlxalq hüququn aliliyini də təmin etdi.

Konstitusiyanın 52-53-cü maddələrinə əsasən Azərbaycan Respublikası harada, hansı müddətə yaşamasından asılı olmayaraq öz vətəndaşlarına hamilik edir. Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə Vətən müharibəsində Zəfərindən sonra dövlətimiz elə bir qüdrətli çağına yetişib ki, artıq Azərbaycan Respublikası yalnız vətəndaşlarının deyil, vətəndaşlığından asılı olmayaraq bütün dünya azərbaycanlılarının hamisinə çevrilib. Bu, möhtəşəm Zəfərimizin ən ciddi mənəvi-siyasi nəticələrindən biridir.

Azərbaycan Respublikası 1995-ci ildən konstitusion formada bəyan edib ki, respublikamız başqa dövlətlərlə münasibətlərini beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur. Ötən illərdə Azərbaycan işğalçı və təcavüzkar Ermənistanla danışıqlar aparmaqla konstitusion formada müəyyən edilən və yuxarıda sadaladığımız niyyət və mövqeyə sadiq qaldığını əməli formada göstərib.

2023-cü il noyabrın 3-də Astanada Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında 10-cu yubiley Zirvə görüşündə Prezident İlham Əliyevin də bəyan etdiyi kimi, "bütün bu illər ərzində Azərbaycan münaqişəni sülh yolu ilə həll etməyə çalışırdı. Lakin Ermənistanın məqsədi işğala əsaslanan status-kvonu möhkəmləndirmək idi".

Ermənistanın BMT Baş Assambleyası və BMT Təhlükəsizlik Şurasının qətnamələri başda olmaqla, çoxsaylı beynəlxalq və regional sənədlərdə rəsmən işğalçı kimi tanınmasına, Azərbaycanın ərazi bütövlüyünə açıq dəstək verilməsinə baxmayaraq, heç bir struktur və heç bir təsisat işğalçıya qarşı hansısa sanksiya, yaxud təzyiq barədə danışmır, beynəlxalq hüquq pozuntusunun aradan qaldırılması istiqamətində əməli tədbirlər görülmürdü. Bəzilərinə münasibətdə saatlar içində icra olunan, hətta bir sıra subyektlərin maraqlarının təmin edilməsi naminə hərbi müdaxilə üçün BMT Təhlükəsizlik Şurasının razılığının belə alınmadığı halda, Azərbaycanın ərazi bütövlüyünü ehtiva edən qətnamələr 30 il kağız üzərində qaldı. Hətta sülh və dialoq prosesində məsul olan beynəlxalq subyektlər, ATƏT-in keçmiş Minsk qrupunun fəaliyyətinin işğal faktorunu leqallaşdırmağa, separatizmin möhkəmlənməsinə yönəldiyi aydın formada görünürdü. Azərbaycan, təbii ki, bu vəziyyətlə barışa bilməzdi.

Ulu öndər Heydər Əliyev hələ 1998-ci il 18 oktyabr tarixində andiçmə mərasimində bəyan etmişdi ki, "Biz heç vaxt heç bir qonşu ölkənin torpağına qəsd etməmişik və bu gün də qəsd etmirik. Heç kəsin torpağına göz dikməmişik. Biz Azərbaycan dövlət müstəqilliyini əldə edən zaman Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmışıq, Azərbaycanın dövlət sərhədləri çərçivəsində olan müstəqil Azərbaycanın tam bütövlüyünü müdafiə edirik və bundan sonra da müdafiə edəcəyik. Biz torpağımızın hansısa bir hissəsini heç vaxt heç bir ölkəyə verə bilmərik. Azərbaycanın sərhədlərinin bütövlüyü, ərazi bütövlüyü bizim üçün müqəddəsdir. Biz bu müqəddəs məqsədlərə nail olmaq üçün bundan sonra da çalışacağıq və bütün vasitələrdən istifadə edib Azərbaycanın ərazi bütövlüyünün bərpasına nail olacağıq".

Ulu öndər Heydər Əliyevin bu istiqamətdə çoxşaxəli fəaliyyəti, ordu quruculuğu, siyasi müstəqilliyə nail olunması, neft strategiyasının sistemli və müasir tələblərə uyğun formada həyata keçirilməsi prosesləri qlobal müstəvidə Azərbaycanın lehinə çevirdi. Lakin dahi lider 2003-cü il 1 oktyabr tarixində xalqa sonuncu müraciətində bildirirdi ki, "xaos və anarxiya dövründə Azərbaycanın pozulmuş ərazi bütövlüyünü, qaçqın və köçkünlərin öz yurd-yuvasına qaytarılması problemini hələ də həll edə bilməmişik". Ulu öndər inanırdı ki, Onun axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, planları, özünün yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyət adlandırdığı siyasi varisi - cənab İlham Əliyev həll edə bilər.

Həyatının 60 ilini xalqının bu günü və sabahı ilə yaşamış böyük Heydər Əliyev yanılmırdı, ölkənin taleyini özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi cənab İlham Əliyevə etibar etməklə hər zamankı kimi bu dəfə də xalqı üçün ən doğru olanı seçdi. Beləliklə, Azərbaycan 2003-cü ildə tamamilə yeni bir eraya qədəm qoyaraq özünün ən qüdrətli dönəminə doğru inamla irəliləməyə başladı. Yol xəritəsi isə kifayət qədər aydın idi. Cənab İlham Əliyev 31 oktyabr 2003-cü ildə andiçmə mərasimində Prezident kimi ilk çıxışında - milli mənafe mövzusunda özünün korrekt mövqeyi ilə ulu öndərin nə qədər haqlı olduğunu nümayiş etdirdi. "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını, nəyin bahasına olursa-olsun, azad edəcəkdir". 200 illik regional düyünün açılması, 30 illik işğala son qoyulması və mütləq qələbəyə nail olunması üçün isə cənab İlham Əliyevə cəmi 17 il lazım oldu.

17 il ərzində Prezident İlham Əliyev Heydər Əliyev siyasi kursuna sadiq qalaraq özünün hər addımı ilə Azərbaycanı böyük Zəfərə daha da yaxınlaşdırdı. İlk növbədə, iqtisadi inkişaf dövlət siyasətinin mütləq prioritetinə çevrildi. Daxili sabitlik, xalq-iqtidar birliyi Prezident İlham Əliyevə çoxşaxəli islahatlar reallaşdırmağa, çoxvektorlu dövlət siyasəti həyata keçirməyə imkan verdi.

Təbii ki, coğrafi mövqeyimiz və zəngin ehtiyatlarımız bu prosesdə önəmli rol oynadı, lakin prosesin idarəçiliyində rasional siyasi davranış, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən, siyasi realizmə söykənən fəaliyyət nümunəsi olmadıqda təbii sərvətlər önəmini itirir. Bu mənada, Azərbaycan Prezidentinin şaxələndirilmiş enerji siyasəti tariximizin qızıl səhifəsinə çevrildi, Azərbaycan özünün tam iqtisadi suverenliyini bərpa etdi, iqtisadi müstəqilliyini möhkəmləndirdi, hətta Avropanın enerji təhlükəsizliyində önəmli pay sahibinə çevrildi. Möhtərəm Prezidentin bəyan etdiyi kimi, neftlə zəngin olan bəzi ölkələr üçün neft lənət deməkdir. Bizim üçün isə bu inkişaf etmək, müstəqilliyimizi gücləndirmək, milli kimliyimizi qorumaq və güclü iqtisadiyyat qurmaq üçün vasitə idi. Paralel olaraq, bütövlükdə dövlətçilik tariximizdə olmadığı qədər ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisi artırıldı, qlobal miqyaslı nəqliyyat-kommunikasiya sistemləri quruldu, təhsil, səhiyyə, idman infrastrukturu faktiki olaraq tam yeniləndi.

Cənab İlham Əliyevin Azərbaycanı suveren gücə çevirməsi ölkəmizin hərbi-müdafiə qüdrətini yeni mərhələyə aparmağa imkan verdi. Azərbaycan regionun hərbi-siyasi gücünə çevrilərək dünyanın ən güclü 50 ordusu sırasında yer tutan ordu, 1200 adda hərbi təyinatlı məhsul istehsal edən nəhəng müdafiə sənayesi infrastrukturu yaratmağa nail oldu.

Ötən 30 il ərzində maraqlı beynəlxalq dairələr Azərbaycanda nəsillərin dəyişəcəyinə və daha çox qloballaşma təfəkkürü ilə formalaşan gənclik üçün artıq Qarabağ və Şərqi Zəngəzur amilinin prioritet olmayacağına inanırdılar. Lakin cənab İlham Əliyev tərəfindən ümummilli liderin azərbaycançılıq fəlsəfəsinin milli nüvə olaraq müəyyən edilməsi, sistemli sosial və siyasi tədbirlərin qanunauyğun nəticəsi kimi yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik, ən əsası isə qələbəyə köklənmiş gənc nəsil formalaşdırılması bu proqnozları puç etdi. Cənab İlham Əliyevin Xankəndidən bəyan etdiyi kimi, elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi".

Nəticədə 2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, xalqın birliyi, Ordumuzun gücü nəticəsində Zəfərlə sona çatdı. 27 sentyabr 2020-ci ildə hücuma keçən erməni silahlı qüvvələrinin nəinki qarşısı alındı, üstəlik, 30 il ərzində möhkəmlənən mövqelər, qurulan istehkamlara baxmayaraq, Azərbaycan bu işğala cəmi 44 gündə son qoydu. Bu gün Qələbəmiz barədə düşünündə yanlız bir qənaətə gəlmək olar: bizi qələbəyə aparan güclü siyasi iradə, vətən sevgisi və hərbçilərimizin peşəkarlığı oldu. Həqiqətən də 30 il ərzində Ermənistanın havadarları bütün dünyaya, eyni zamanda Azərbaycan xalqına təlqin etməyə çalışırdılar ki, Azərbaycan öz ərazi bütövlüyünü heç vaxt müharibə yolu ilə bərpa edə bilməz. Vasitəçilər, qlobal güclər israr edirdilər ki, bu münaqişənin hərbi həlli yoxdur. Faktiki olaraq az qala bütün dünya bizi işğal faktoru ilə barışmağa vadar edirdi.

Lakin cənab İlham Əliyev heç bir yad faktorun milli iradə üzərində hökmranlıq niyyətinə imkan vermədi və 27 sentyabr 2020-ci ildə əks-hücum əməliyyatları ilə Azərbaycan dövlətçilik tarixində yeni era başlatdı. Ümumiyyətlə, böyük Zəfərimiz miqyasına görə yalnız ölkə əhəmiyyətli məsələ hesab oluna bilməz, qələbəmiz həm də beynəlxalq hüququn təntənəsi idi. Çünki Vətən müharibəsi zamanı Prezident İlham Əliyev BMT Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalan qətnamələrini icra etməklə beynəlxalq hüququn aliliyini təmin etdi. Möhtərəm Prezident bizə illər uzunu nələrisə öyrətməyə, yaxud təlqin etməyə çalışan, özləri milyonların həyatına qəsd edib bizə beynəlxalq humanitar hüquqdan dərs keçmək istəyənlərə mülki insanları hədəfə almadan hərbi əməliyyatlar necə aparılır onu göstərdi.



**Bəhruz MƏHƏRRƏMOV,**
**Milli Məclisin deputatı.**

Müharibə dövründə hərbi qələbələri ilə yanaşı, diplomatik müstəvidə və informasiya cəbhəsində də misilsiz liderlik şücaəti göstərən, onlarla aparıcı xarici media subyektlərinə verdiyi müsahibələrlə informasiya siyasətinin ustad dərsi nümunəsi ortaya qoyan Prezident İlham Əliyev Zəfərimizin nəticələrinin qorunması, bu reallığın hər kəs tərəfindən qəbul edilməsi istiqamətində fəaliyyəti ilə də tarix yazdı. Ermənistan özü Azərbaycanın ərazi bütövlüyünü rəqəmlərdə ifadə etməyə məcbur oldu.

Beləliklə, cənab İlham Əliyev 17 il ərzində tam iqtisadi müstəqilliyə nail olmaq, siyasi suverenliyimizi möhkəmləndirmə, ordu quruculuğu prosesini peşəkar formada həyata keçirmək, cəmiyyətdə ideoloji işi ən yüksək səviyyədə qurmaqla, bütün dünyanı qarşısına alaraq öncə hərbi, daha sonra isə siyasi Qələbə əldə edərək yeni bir Azərbaycan yaratdı. Qalib, qüdrətli "dəmir yumruq" ətrafında bir nəfər kimi cəm olan gücə çevrildik. Lakin qələbələrimiz bununla bitmədi. Müharibədən çıxmış bir ölkə olmağımıza, dünyada hökm sürən təlatümlərə rəğmən qələbədən dərhal, cəmi 8 gün sonra Prezident İlham Əliyev və ölkənin birinci xanımı Mehriban Əliyeva işğaldan azad olunmuş rayonlara səfər etdilər və elə həmin tarixdən də bərpa-quruculuq prosesinə başlandı. Cənab Prezidentin dediyi kimi, bütün bu işlərin yeganə maliyyə mənbəyi Azərbaycan büdcəsi oldu. Cəmi 8 aya ən müasir standartlara uyğun inşa edilən Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verilib, 2022-ci ilin 19 iyulunda Zəngilan rayonunun Ağalı kəndinə, 2023-cü il martın 16-da Tərtər rayonunun Talış kəndinə, mayın 27-də Laçın şəhərinə, avqustun 18-də Füzuli rayonuna, 25-də Laçın rayonunun Zabux kəndinə, 2024-cü il may ayının 9-da Şuşa şəhəri və Laçın rayonunun Sus kəndinə, 27-də isə Xocalı şəhərinə ilk köç başlanmış və proses uğurla davam edir. Eyni zamanda onlarla yaşayış məntəqəsinin təməli qoyulub və məktəblər, xəstəxanalar, sosial obyektlər, kəndlər salınır. 3 min kilometr avtomobil yolu inşa edilib. Dövlətimizin mövqeyi ondan ibarətdir ki, Böyük Qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşması ilə yanaşı, həm də bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olsun. Yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı tarixi nitqində də Prezident İlham Əliyev bir daha Qarabağ və Şərqi Zəngəzurun bərpasının "təbii olaraq bizim hər birimizin önəmli vəzifəsi" olduğunu bəyan etdi.

Lakin sirr deyil ki, Azərbaycanın Qarabağ iqtisadi regionunda ötən ilə qədər Ermənistan və xarici havadarların dəstəyi ilə separatçı xunta rejiminin mövcudluğu, habelə 10 noyabr Bəyanatına zidd olaraq Ermənistanın ordu hissələrinin 20 minə qədər hərbçisinin qanunsuz olaraq qalması bütün ölkə ərazisində suveren haqlarımızın bərqərar olunmasına imkan vermirdi. 2023-cü il sentyabrın 19-da cənab İlham Əliyev hərbi-siyasi iradə nümayiş etdirərək lokal xarakterli antiterror tədbirləri ilə bu ağır probleme nöqtə qoydu. Beləliklə, İkinci Qarabağ müharibəsində işğala son qoymaqla, 2023-cü il aprelin 23-də Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini təsis olunması ilə ərazi bütövlüyümüzü, sentyabrın 19-da isə suverenliyimizi tam bərpa etməklə cənab İlham Əliyev Azərbaycan tarixinin heç bir dövründə heç bir liderə müyəssər olmayan geosiyasi reallıq yaratdı. Müzəffər Ali Baş Komandan separatizmlə mübarizədə Azərbaycan modelini yaradaraq cəmi 23 saat ərzində 44 günlük savaşımızda yarımçıq qalmış bir prosesin nöqtəsi qoyuldu.

Əvvəllər bizə məğlub və zəif kimi baxanlar Müzəffər Ali Baş Komandan İlham Əliyev iradəsi qarşısında əyilməyə, "dəmir yumruq" ətrafında birləşmiş xalqımızı dünyada mübariz, döyüşkən və müzəffər xalq kimi qəbul etməyə məcbur oldu. Digər mühüm məqam isə ondan ibarətdir ki, cənab İlham Əliyev lokal xarakterli antiterror tədbirləri ilə cəmi 23 saata minimal itkilərlə dünyada separatizmlə mübarizədə ən effektiv, real və köklü nəticə nümunəsi ortaya qoymaqla qlobal miqyasda presedent yaratdı.

Heç şübhəsiz ki, effektiv siyasət və xalqın dəstəyi ilə tarixi ədalətin bərpa olunması, Azərbaycanın Qalib ölkəyə çevrilməsi ulu öndər siyasi kursunun və Prezident İlham Əliyevin idarəçiliyinin şah əsəridir. Lakin bu reallığın nəticələrinin qorunması da işğala son qoyulması qədər mühüm və vacib amildir və zəfərimizdən doğan gücümüz, möhkəmlənən həmrəyliyimiz qələbələrin davamlılığını həm təmin edir, həm zərurətə çevirir. Unutmamalıyıq ki, qalibiyyət tarixin təbii axarında qorunmur, bu, yalnız Heydər Əliyev siyasi kursunun davamlılığından birbaşa asılıdır.

Vətən müharibəsinin 4-cü ildönümündə prosesləri təhlil edərkən və ötən dövrə nəzər salarkən aydın görünür ki, bütün uğurların təməlində Azərbaycanın idarəçiliyi əmin əllərdə olması və milli iradədədir. Düzgün idarəçilik nəticəsində mövcud iqtisadiyyatımız dayanıqlı iqtisadiyyatdır, siyasətimizi milli maraqları təmin edə biləcək siyasət kimi bütün dünya qiymətləndirir. Ordumuz regionun ən güclüsüdür, cəmiyyətimizdə döyüş ruhu kifayət qədər yüksəkdir. Bu gün biz keçmiş SSRİ məkanında yeganə qalib xalqıq, tariximizin ən güclü dövrünə qədəm qoymuşuq. Məhz bu güc, bu qüdrət, ən əsası isə möhtərəm Prezidentin qətiyyəti ilə dövlətimiz suverenliyini bərpa edib. Məhz bu qətiyyət Livan ölçüdə bir ərazini - 30 il xarabazara çevrilmiş Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirir.

Cənubi Qafqaz kimi mürəkləb coğrafiyada belə genişmiqyaslı işləri aparmaq ciddi cəsarət, qətiyyət və iqtisadi güc tələb edir. Möhtərəm Prezidentin özünün də 23 sentyabr tarixində Parlamentdəki çıxışında ifadə etdiyi kimi, "bu doğrudan da xalqımızın böyük imkanlarını göstərir və burada söhbət təkcə maliyyə vəsaitindən getmir. Bizim qurduğumuz dövlət, eyni zamanda, texniki imkanlara malikdir. Kadr hazırlığı da yerindədir. Çünki bu işləri görmək - üç min metrdən yuxarı hündürlüyü olan dağlarda qış vaxtında elektrik xətləri çəkmək, doğrudan da böyük peşəkarlıq tələb edir. Yəni ölkəmizin potensialı budur".

Azərbaycan xalqı bu reallığı yaradan Böyük Lider cənab İlham Əliyevə, onun Qalib Ordusuna həmişə minnətdarlıq duyacaq. Biz hər zaman şəhidlərimizi ehtiramla anacaq, onların qəhrəmanlığı ilə qürur duyacağıq. ■

